# Zəfər Gününə həsr olunmuş konsert proqramı

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) nəzdində Humanitar Kollecdə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə 8 Noyabr - Zəfər Günü münasibətilə konsert proqramı təşkil edilib.**



Kollecdən bildirilib ki, tədbir 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş kollecin altı məzununun xatirəsinin anılması ilə başlanıb. İştirakçılar şəhidlərin xatirə lövhəsinin önünə tər güllər düzərək onların əziz xatirəsini ehtiramla yad ediblər. Ardınca Dekorativ-tətbiqi sənət və Bədii xalça ixtisası tələbələrinin hazırladıqları, Zəfər Gününə həsr olunmuş əl işlərindən ibarət sərgi ilə tanışlıq olub.

Tədbirin açılışında Humanitar Kollecin direktoru musiqişünas dosent Nərmin Qaralova çıxış edərək iştirakçıları Zəfər Günü münasibətilə təbrik edib.

Sonra Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının sədr müavini Sevinc Abdullayeva, Naxçıvan Musiqi Kollecinin direktoru Əməkdar müəllim Məhəbbət Babayeva və sənət adamı Xədicə Sənanqızı da çıxış edərək, Azərbaycan Ordusunun qəhrəmanlığından və Zəfərin xalqımız üçün mənəvi qürur mənbəyi olmasından danışıblar. Onlar gəncləri vətənpərvərlik ruhuna sadiq qalmağa, sənət vasitəsilə bu dəyərləri yaşatmağa çağırıblar.

Kollecin tələbələri Gülçin Tanrıverdiyeva və Canəli Canəliyev isə Zəlimxan Yaqubun "Qələbə, qələbə, yalnız qələbə" və Asim Yadıgarın "Zəfər yolu" şeirlərini səsləndirərək tamaşaçılara təsirli anlar yaşadıblar.

Tədbir Zəfər Gününə həsr olunan qürur və minnətdarlıq duyğuları ilə yekunlaşıb.